# 105 il əvvəl: İstiqlalımızın çətin sınaq tarixi

*Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süqutundan 105 il ötür. AXC müsəlman Şərqində ilk parlamentli, demokratik və hüquqi respublika kimi tarixə düşüb. AXC 28 may 1918-ci ildə Tiflisdə elan olunub və 23 ay - 1920-ci ilin 28 aprelində Sovet işğalına qədər fəaliyyət göstərib. Bir əsr öncə ilk milli dövlətin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olub. AXC-nin yaranması ölkəmizin sonrakı inkişafında önəmli rol oynayıb.*

105 il əvvəl baş verən tarixi hadisələrə nəzər saldıqda aydın olur ki, 1920-ci il Azərbaycan Xalq Cümhuriyyəti üçün ümidverici başladı. Yanvarın 11-də Parisdə keçirilən Versal Ali Şurasının qərarı ilə Azərbaycanın müstəqilliyi de-fakto tanındı. Bu, AXC hökuməti üçün beynəlxalq aləmdə legitimlik qazandırmaq baxımından mühüm bir uğur idi. Azərbaycanın müstəqilliyinin dünya ictimaiyyəti tərəfindən qəbul olunması yolunda bu qərar böyük əhəmiyyət daşıyırdı. Martın 20-də isə daha bir önəmli hadisə baş verdi: Qacarlar dövləti (İran) Azərbaycan Xalq Cümhuriyyəti ilə imzaladığı rəsmi müqavilə əsasında Azərbaycanın dövlət müstəqilliyini rəsmən tanıdı. Beləliklə, AXC təkcə Avropa dövlətləri deyil, regionun güclü siyasi qüvvələri qarşısında da müstəqil dövlət statusunu təsdiqlədi. Lakin müsbət dinamika çox çəkmədi. Geosiyasi vəziyyət sürətlə dəyişməyə başladı. Birinci Dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyəti Cümhuriyyət üçün ciddi çətinliklər yaratdı. Çünki AXC yaranandan bəri regionda əsas dəstəyini məhz Osmanlı dövlətindən alırdı. Osmanlının zəifləməsi Azərbaycanın siyasi mövqelərini sarsıtdı, milli hökumətin beynəlxalq dayaqlarını zəiflətdi və daxili siyasi sabitliyi qorumaq çətinləşdi. Üstəlik, Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi və Sovet ideologiyasının Qafqaza yayılması Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunu ciddi təhdid altına saldı.

1920-ci ilin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti qarşısında böyük maliyyə tələbatı yaranmışdı. Ordunun döyüş hazırlığını artırmaq, beynəlxalq maliyyə əməliyyatları aparmaq və digər vacib sahələri dəstəkləmək üçün ölkənin təxminən 40-50 milyon qızıl manata ehtiyacı vardı. Hökumətin bu vəsaitin bir hissəsini Britaniya komandanlığına verilmiş 8 milyon 405 min manatlıq borc hesabına əldə etməyə ümidi vardı. Halbuki real borc məbləği daha böyük idi. Bu məqsədlə Azərbaycan hökuməti Britaniyaya müraciət etmişdi. Tələb yalnız borcun deyil, həm də ingilislər vasitəsilə Biçeraxovun ixtiyarına keçən qiymətli əşyaların geri qaytarılmasını əhatə edirdi. Lakin bəzi tarixçilərin qənaətinə görə, bu addım Cümhuriyyətin taleyində ağır nəticələr doğuran ciddi səhv oldu. İngiltərənin maliyyə məsələlərindəki həssaslığı yetərincə nəzərə alınmamış, borc məsələsi vaxtından xeyli əvvəl gündəmə gətirilmişdi. Doğrudur, 1920-ci ilin fevralında Britaniyanın xarici işlər naziri Lord Kerzon Azərbaycanın haqlı olduğunu təsdiqləmişdi. Lakin o da qeyd etmişdi ki, həmin vəsaitlər və neft məhsulları əsasən ingilis hərbi komandanlığının Azərbaycan xalqına göstərdiyi yardımlara sərf edilib. Biçeraxovun zəbt etdiyi qiymətli əşyalar məsələsində isə Britaniya hökuməti bu şərtlə razılıq verirdi ki, Azərbaycan çar Rusiyasının müharibədən əvvəlki borclarından öz payına düşən hissəni ödəməyi öhdəsinə götürməlidir. Bu ağır şərtlər qarşısında gənc Azərbaycan dövləti böyük çətinliklərlə üz-üzə qaldı. Gürcüstan Cümhuriyyətinin baş naziri işləmiş N.N.Jordaniya sonralar Parisdə çıxan kitabında yazırdı: "Dünya üçün sirr deyildir ki, Sovet Rusiyasını Güney Qafqaz respublikalarının torpaqlarını işğal etməyə İngiltərə baş naziri Lloyd Corc sövq edirdi. Bu sirr Çiçerinin dilindən çıxmış və bütün dünya bu sirri eşitmişdi".

1920-ci ilin fevral ayında Şimali Qafqazda Denikinin rəhbərliyindəki hərbi birləşmələrin sovet Rusiyası tərəfindən məğlubiyyətə uğradılması Cənubi Qafqazın işğalını daha da yaxınlaşdırdı. Sovet Rusiyasının əsas məqsədi keçmiş çar imperiyasının ərazilərini yenidən öz təsiri altına almaq idi. Bu məqsədlə 1920-ci ilin yanvar-mart ayları ərzində Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə bir neçə nota göndərildi. Həmin sənədlərdə sovet Rusiyası bir tərəfdən AXC-ni hədələyir, digər tərəfdən isə Şimali Qafqazda fəaliyyət göstərən ağqvardiyaçılara qarşı birgə mübarizə aparmağı təklif edirdi. Azərbaycan hökuməti bu müraciətlərə cavabında bildirirdi ki, sözügedən məsələ Rusiyanın daxili problemi hesab olunur. Eyni zamanda Azərbaycan tərəfi Rusiyanın müstəqil dövlət kimi tanınması şərti ilə qarşılıqlı danışıqlara açıq olduqlarını bəyan edirdi. Sovet Rusiyasının sonrakı notalarında AXC-nin müstəqilliyinin tanınmasının vaxt tələb etdiyini vurğulamaqla yanaşı, ağqvardiyaçılara qarşı ittifaq ideyasını yenidən gündəmə gətirirdi. Azərbaycanın cavabında isə xalqların öz müqəddəratını təyin etmək hüququnun əsas prinsip olduğu qeyd edilir və sovet Rusiyasının bu hüququ tanımağa yanaşmaması danışıqların məqsədinə uyğun olmadığı kimi qiymətləndirilirdi.

Qərbin yeni müstəqil dövlətlərə zəif dəstək verdiyini görən bolşeviklər "vahid Rusiya" ideyasını fərqli ad altında reallaşdırmaq üçün fəal hərəkətə keçdilər. 1920-ci il martın 22-də - Novruz bayramı günündə Xankəndidə yerləşən Azərbaycan ordusunun hissələrinə erməni silahlı dəstələri tərəfindən qəfil hücum təşkil olundu. Bu təcavüz Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təcili və qəti tədbirlər görməyə vadar etdi. Baş verən hadisələrin fonunda düşmən qüvvələrinin hücumlarının intensivləşməsi AXC rəhbərliyini şimal sərhədlərində yerləşdirilmiş milli ordu qüvvələrinin əsas hissəsini Qarabağa yönləndirməyə məcbur etdi. 1920-ci il aprelin 2-də Əsgəran yaxınlığında baş verən döyüşdə Milli Ordumuz erməni silahlı dəstələrini ağır məğlubiyyətə uğradaraq Əsgəran və Xocalı bölgələrini azad etdi. Eyni dövrdə Ermənistanın ordu hissələrinin Qazax və Naxçıvan istiqamətlərində törətdiyi hücumlar AXC hökumətini qərb sərhədlərinin müdafiəsini gücləndirmək üçün əlavə qüvvələr göndərməyə məcbur etdi. Sovet Rusiyasının Azərbaycana müdaxilə ərəfəsində Cümhuriyyət daxilində siyasi qüvvələr arasında birliyin olmaması, müxtəlif yanaşmaların üstünlük təşkil etməsi vəziyyəti ağırlaşdırırdı. Parlamentdə bəzi deputatlar Sovet Rusiyası ilə münasibətlərin nizama salınmasını zəruri saysa da, digərləri qətiyyətli və sərt mövqedən çıxış edirdi. Bu çətin şəraitdə XI qızıl ordu aprelin 26-da Azərbaycan sərhədlərini keçərək ertəsi gün Quba və Qusar rayonlarını işğal etdi. Aprelin 27-də səhər saatlarında bolşeviklərin silahlı dəstələri Bakıda və onun ətraf bölgələrində həyati əhəmiyyətə malik obyektləri - dəmiryolu vağzalını, poçt və teleqraf idarələrini, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını nəzarət altına aldılar. Bakı ilə Gəncə arasında telefon və teleqraf rabitəsinin kəsilməsi hökumətin bölgələrdə yerləşən özünə sadiq ordu hissələrini vaxtında köməyə çağırmasına mane oldu. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi ağır zərbə aldı və bolşevik istilası ölkənin taleyində faciəli bir səhifə açdı.





1920-ci ilin aprelində Azərbaycanın dövlət müstəqilliyi üçün son dərəcə gərgin və taleyüklü anlar yaşanırdı. Sovet Rusiyasının Azərbaycana qarşı işğal planının həyata keçirilməsində Xəzər Hərbi Donanması həlledici rol oynadı. Bu strateji donanmanın heyəti həmin dövrdə bolşeviklərdən və onlara simpatiya bəsləyən matroslardan ibarət idi. Çingiz İldırımın rəhbərlik etdiyi hərbi gəmilər Bakı sahillərində düzülərək Parlament və hökumət binalarını hədəfə aldılar. Donanma komandiri Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə hakimiyyəti hələ rəsmi olaraq qurulmamış Azərbaycan Sovet hökumətinə iki saat ərzində təslim etmələri üçün sərt ultimatum göndərdi. Bu ağır təzyiq qarşısında "Məclisi-Məbusa"nın sonuncu iclası keçirildi. Təhlükəli vəziyyəti nəzərə alan sədr Məhəmmədhəsən Hacınski, Məhəmməd Əmin Rəsulzadə, Qara bəy Qarabəyov, Aslan bəy Safikürdski və Aslan bəy Qardaşovdan ibarət xüsusi komissiya yaradıldı. Komissiyanın əsas məqsədi təslim şərtlərini müzakirə etmək və ölkənin gələcəyinə dair qərar vermək idi. İclas başlamazdan öncə Məhəmməd Əmin Rəsulzadə tarixi bir təkliflə çıxış etdi: "Bu qədər taleyüklü qərarı millətdən gizlətmək doğru olmaz. Parlamentin qapılarını açıq qoyaq ki, xalqımız içəridə hansı təhlükəli vəziyyətin hökm sürdüyünü və bizim necə ağır qərarlar qəbul etməyə məcbur olduğumuzu açıq şəkildə görsün". Bu təklif səmimi qarşılandı və yekdilliklə qəbul edildi.

Parlamentdə söz alan Məhəmməd Əmin Rəsulzadə dedi: "Əfəndilər! Mütəcasir (cəsarətli) bir ultimatum qarşısında bulunuruz. Bu arada təslimdən bəhs edirlər. Fəqət, əfəndilər, təslim nə demək?.. Kima tərki-mövqe ediriz? (Yeri kimə veririk). Bizə deyirlər ki, hüdudumuzu keçən ordunun başında Nicati (Xəlil paşa) namında bir Türk komandanı durmuşdur. Rusiyadan gələn bu mütəcaviz (təcavüzkar) ordu, təmin edirlər ki, (inandırmağa çalışırlar) həyat və məmat mücadiləsində bulunan Türkiyəni xilas üçün gedir. Əfəndilər! Türkiyə Azərbaycanın xilaskarıdır, amalı milliyyətimizin təbcil elədiyi (milli duyğularımızın ucaldığı) müqəddəs bir məmləkətdir. Onun xilasına gedən pivosti biz məmnuniyyətlə istiqbal və təşyi edəriz, (qarşılayar və yola salarıq) fəqət bir şərtlə bu qüvvət bizim hürriyyətimizi, istiqlalımızı çığnamasın. Halbuki əfəndilər, bizdən soruşmadan hüdudumuzu keçən hər hansı bir qüvvət dostumuz deyil, düşmənimizdir!.. Biz buraya millətin iradə və arzusu ilə gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır!..". Parlamentdə təslim olmağı təklif edənlər də oldu. Səmədağa Ağamalıoğlu bildirdi ki, təslimdən başqa çarə yoxdur, çünki artıq iş işdən keçib.

Aprelin 27-də saat 23:00-da verilən qərarla Parlament səs çoxluğu ilə müəyyən şərtlər daxilində hakimiyyətin bolşeviklərə təhvil verilməsini qəbul etdi. Həmin şərtlərə daxil idi: Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti saxlanılır; Azərbaycan kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır; Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirəcəkdir; Hökumət idarəsinin bütün qulluqçuları öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir; Yeni yaradılan müvəqqəti kommunist hökuməti parlament və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir; Qırmızı ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcəkdir; Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq, Azərbaycanın istiqlalını sarsıtmaq məqsədini güdən bütün xarici qüvvələrə qarşı öz sərəncamında olan vasitələrlə qəti tədbirlər görəcəkdir.

Təəssüf ki, sadalanan bütün bunlar yalnız kağız üzərində qaldı. Bakıda yaşanan siyasi proseslər fonunda Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Moskvaya radioteleqram göndərərək təcili hərbi yardım tələb etdi. Sənəddə yazılmışdı: "Bakıda çevriliş baş vermişdir və biz qırmızı qoşunların Bakıya yeridilməsini xahiş edirik". Bu müraciətdən qısa müddət sonra, Kirov, Orconikidze, Mikoyan və digər bolşevik liderlərinin başçılığı altında Qırmızı Ordu yalnız Bakını deyil, bütün Azərbaycan ərazisini işğal etdi. Azadlıq və müstəqillik uğrunda mübarizə aparan Azərbaycan xalqı amansız repressiyalarla üz-üzə qaldı. Moskva baş verənləri diqqətlə izləyir və Azərbaycanın daxili siyasi vəziyyətindən xəbərdar idi. Onlar yaxşı bilirdilər ki, yerli kommunistlərin xalq arasında dəstəyi yox idi və müstəqil hakimiyyət qurmağa qadir deyildilər. Elə bu səbəbdən də Kremlin planı əvvəldən Azərbaycanı hərbi güc yolu ilə işğal etmək və idarə etmək idi. Sovet rəhbərliyi öz müttəfiqlərinə tam etibar etmədiyi üçün Azərbaycan kommunistlərinə dövlət idarəçiliyinin açarlarını vermək niyyətində deyildi. Yerli idarəçiliyin əsas hissəsi Orconikidze, Kirov, Mikoyan, Mirzoyan, kimi Sovet emissarlarının rəhbərliyi altında təşkil olundu. Azərbaycanın idarə olunmasında bu antimilli qüvvələr əsas söz sahibi oldular. Hakimiyyətin digər qolunu isə XI ordu və onun birbaşa tərkib hissəsi olan Fövqəladə Komissiya ("Çeka") təşkil edirdi. "Çeka" ölkədə siyasi terrorun əsas icraçısına çevrilmişdi və onun fəaliyyəti tamamilə Moskvanın birbaşa nəzarəti altında idi.

Azərbaycanın müstəqilliyinə son qoyulması sadəcə bir ölkənin azadlıq və istiqlaliyyət mübarizəsinin nə qədər çətin və zəhmətli olduğunu göstərir. Sovet Rusiyası işğaldan sonra yalnız silah gücü ilə deyil, həm də ideoloji təsirlərlə Azərbaycan xalqını nəzarət altında saxlamağa çalışdı. Bütün məhrumiyyətlərə baxmayaraq, 70 il sonra Azərbaycan öz müstəqilliyini bərpa edə bildi.

**Musa BAĞIRLI,**
**"Respublika".**